**SEVİNC RƏSULOVA**
**Pedaqogika üzrə fəlsəfə doktoru,**
**ADPU**
rasulova.s@mail.ru

# MAARİFÇI-REALIST UŞAQ ŞEİRİMİZDƏ VƏTƏNPƏRVƏRLİK İDEYALARI

**Xülasə**

Azərbaycan uşaq ədəbiyyatının təşəkkül və ilkin inkişaf mərhələsi XIX əsrin II yarısı və XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövr həm də uşaq ədəbiyyyatımızın maarifçi-realist mərhələsidir. Bu dövrdə uşaq ədəbiyyatımızı, o cümlədən uşaq poeziyası nümunələrini müxtəlif mövzu və ideya qruplarına ayırmaq olar. Bu məqalədə biz həmin əsərləri təhlilə cəlb etməyə çalışmışıq. Həmin mövzu və ideya qrupları içərisində vətənpərvərlik motivləri də mühüm yer tutur. Dövrün dahi qələm sahibləri bu motivi coşqun şəkildə təbliğ və tərənnüm edirdilər. Məqalədə bu barədə Azərbaycan ədəbi-nəzəri fikrində mövcud olan mülahizə və qənaətlər nəzərdən keçirilir. Həmin mülahizə və qənaətlərə münasibət bildirilir.

Bu dövrdə vətəndaşlıq lirikamızın çoxlu sayda nümunələri yaranmışdır. Bu nümunələri yaradan uşaq şairlərindən R.Əfəndizadənin, H.Qaradağinin, Ə.Yusfizadənin, A.Səhhətin, S.Hacıbəyovun , A.Şaiqin, M.Hadinin, M.Ə.Sabirin, H.Cavidin, Ə.Müznibin, İ.T. Musayev-Şuşinin, S.Mənsurun, B.Mürşüdün , Ə.Ülvinin, Türk şairlərindən Nazim Xürrəmin, Süleyman Sərinin və başqalarının dediyimiz mövzuda şeirləri vardır. Bütövlükdə vətən mövzusunda qələmə alınmış uşaq şeirlərində vətənin təbiəti, dağları, çayları, meşələri, başqa ecazkar gözəllikləri təsvir və vəsf edilir. Əlbəttə, bu, kiçik uşaqların qəlbini həyatın işıqlı tərəfləri, gözəlliyi ilə oxşamaq məqsədini daşıyır. Uşaqlarda nikbin əhvali-ruhiyyə formalaşdırmaq meyli ilə bağlıdır. Bu, uşaq yazıçılarının üzərinə düşən əsas missiyalardan biridir.

Biz məqalədə həmin dövrdə uşaq şairlərimizin vətənpərvərlik mövzusunda yazdıqları əsərləri tədqiqata cəlb etmişik. Tədqiqat zamanı mümkün qədər ümumiləşdirmələr aparmışıq.

İdeya-məzmun və sənətkarlıq cəhətdən daha əhəmiyyətli görünən əsərləri diqqət mərkəzində saxlamağa səy göstərmişik.

**Açar sözlər:** maarifçi-realizm, uşaq şeiri, vətənpərvərlik, milli özünüdərk, vətən idealı

Milli intibah dövründə Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitinin qabaqcıl məfkurə münəvvərlərini məşğul edən mühüm problemlərdən biri də vətənpərvərlik, millətsevərlik və vətənin, millətin hürriyyəti, istiqlalı idealı idi. C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının (1917, №24) səhifələrində işıq üzü görmüş məşhur "Azərbaycan" məqaləsindəki bu sözləri vətən və xalqın taleyini düşünən milli ziyalı elitasının baxışlarını ifadə edirdi. "Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı, inna lillahi və inna ileyhi raciun; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur".

Böyük milli ideoloq Əli bəy Hüseynzadə də vətən idealına münasibətdə məsələni daha qabarıq, daha kəskin qoyurdu. Hazırki tarixi dövrdə "olum, ya ölüm" dilemması qarşısında qalan vətən ya biryolluq məhv olmalı, ya da ayağa qalxıb zülmətdən, zəlalətdən xilas olmalıdır. Görkəmli ideoloq yazırdı: "Vətənin şu Feniks kimi yanıb kül olması, illər uzunu aləmi-bizar edərək, istibdad yükü altında əzilib inləməkdən min qat övladır" (5, XII).

Vətənpərvərlik, millətsevərlik, hürriyyət və istiqlal ideyaları haqqında danışdığımız dövrdə milli məkanda ədəbi təsərrüfatda, o cümlədən uşaq ədəbiyyatında da özünün ardıcıl və məhsuldar bədii təcəssümünü tapırdı. Həm də bu ideyalar müxtəlif üslub, forma və çalarlarda üzə çıxırdı. Yəni birbaşa tərənnüm, ya vətən təbiətinin vəsfi, ya vətən övladlarına xitab, ya vətənin və millətin acınacaqlı halını təsvir, ya vətən övladının məyusedici halını açıb göstərmək və ona acımaq, ya da hürriyyət və istiqlalın nə olduğunu izah, bədii şərh yolu ilə və s. üsullarla verilirdi. Məsələn, R.Əfəndizadə "Vətən məhəbbəti" (4, 19), Əli Yusfizadə "Vətən" (10, 1913, №2), A.Səhhət "Vətən" (16, 48) şeirlərində birbaşa vətəni tərənnüm yolu tuturlar. A.Səhhət qüdrətli şair istedadı ilə vətənin ülvi, müqəddəs, vətən övladı üçün ən əsas atributlarını kiçik bir lirik nümunənin misralarına, hüdudlarına elə sığışdırır ki, hər kəs ona nə üçün borclu olduğunu, onu nə üçün sevmək lazım gəldiyini aydın dərk edir:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü-nüma.
Vətənim verdi mənə nanü-nəmək
Vətəni məncə unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.
...Vətən - əcdadımızın mədfənidir,
Vətən - övladımızın məskənidir (16, 48).

Doğrudan da, uşaq poeziyasının dəyərli, mükəmməl nümunələrini yaradan A.Səhhətin şeirləri istər məzmun, istərsə də forma gözəlliyi ilə seçilirdi. Uşaq ədəbiyyatımızın tədqiqatçılarından Ə.Məmmədov haqlı olaraq yazır: "Abbas Səhhət XX əsrin əvvəllərində ən gözəl uşaq şeirləri yazan şairlərdən idi. O, ən çox ana yurdun, təbiətin, dağların, dərələrin gözəlliyindən bəhs edir, uşaqlarda xoş əhvali-ruhiyyə, gələcəyə nikbin baxış oyadır. Onun uşaq şeirləri ahəngdarlığı, səmimiliyi və axıcılığı ilə fərqlənir. Bu cəhət onun "Vətən" şeiri üçün də səciyyəvidir. Şair bərəkətli, bol nemətli vətən torpağını hər şeydən uca tutur, onun gözəlliyini sadə dillə, lirik boyalarla qələmə alırdı" (11, 70).

A.Səhhətin ilk dəfə "Məktəb" jurnalında (1914, №2) çap olunan başqa bir "Vətən" sərlövhəli mənzuməsi də vardır. Səməd bəy Hacıbəyovun "Vətən" (6, 52), A.Şaiqin "Dağlar soltanı" və s. şeirlərində olduğu kimi A.Səhhət də burada vətənin təbiətini, dağlarını, çaylarını, meşələrini, başqa ecazkar gözəlliklərini təsvir və vəsf etməklə ona məhəbbət oyadır. Bu cür peyzaj təsvirlərindən yararlanan müəlliflər bədii söz vasitəsi ilə vətənin füsunkar gözəlliklərini vəsf edərək sanki oxucuya deyirlər: Əgər sənin yaşadığın, boya-başa çatdığın Vətən belə gözəldirsə, onu sevməmək olarmı?

A.Səhhət irsinin tədqiqatçısı K.Talıbzadə sənətkarın ikinci "Vətən" şeirindən söz açarkən qeyd edir ki: "Bu şeir bir növ Səhhətin 1909-cu ildə yazdığı eyni adlı "Vətən" şeirinin mabədidir. Doğrudur, birinci "Vətən" şeiri öz təsvir üsulu ilə ikincidən seçilir. Burada vətəni təsvir yox, təqdim əsasdır, buna görə də əsər marş, nəğmə, himn səciyyəsi daşıyır. Ancaq məqsəd eynidir: vətənə məhəbbət oyatmaq" (18, 90).

Vətənpərvərlik mövzusunda yazılmış uşaq şeirlərinin bir qismində müəlliflər birbaşa vətən övladına üz tutur, onu vətənə xidmət etməyə, onun şərəfini qorumağa, mənsub olduğu vətənin, millətin təəssübünü çəkməyə, onun yolunda fədakarlığa çağırır. M.Hadinin "Vətənin nidası" ("Ricayi-vətən" – 3, 1907, №1), M.Ə.Sabirin "Qarınca" (15, 390), H.Cavidin "Qoca bir

türkün vəsiyyəti" (17, 226), Ə.Müznibin "Əsgər", "Vətən" (13, 47, 48) və s. şeirləri bu cür poetik xitablar şəklində qələmə alınmışdır.

M.Hadinin şeirlərinin dili bir qayda olaraq ərəb-fars söz və tərkibləri ilə xeyli dərəcədə ağırlaşdırılmış olsa da, balacalar üçün ərsəyə gətirdiyi əsərlərin dili qismən sadə, yüngül və səlisdir. İlk dəfə "Dəbistan" jurnalında "Ricayi-vətən" sərlövhəsi ilə dərc olunan "Vətənin nidası" şeirində şair vətən oğullarını mənəvi qəflətdən ayrılıb vətən və millətin tərəqqisi, səadəti yolunda mübarizəyə, fədakarlığa bu cür səsləyir:

Bəsdir, yetər artıq, dur, oğul, dur, daha yatma!
Namusu, həyanı, ədəbi uyquya satma!
Ey sevgili övlad, ayıl, allahı sevərsən,
Gün doğdu, hamı durdu, yatan bircə özünsən.
Yoldaşlarına, sil gözünü, yaxşı bax, oğlum,
Onlar yetib istəklərinə, sən uzaq, oğlum.
Başdan papağın, ya başını qapdıracaqdır –
Ol yol gedən adəm ki, yol üstü yatacaqdır (7, 36).

Ə.Mirəhmədov M.Hadinin vətən mövzusunda yazılmış şeirlərindən danışarkən doğru olaraq qeyd edir: "Şair övlad dili ilə iqrar edir ki, dünyada bizim əsas fikrimiz, idealımız vətənin abadlığıdır, vicdanımızın sevimli dilbəri vətəndir, sənət bağçasında qəmli bülbülləri dilə gətirən vətən gülzarıdır; o vətən ki, onun gülzarı solmuşdur, bünövrəsi ikiüzlü, fitnəkar adamların vicdanı kimi pozulmuşdur" (12, 43).

Haqqında danışdığımız səpkidə yazılan vətən mövzulu lirik əsərlərdə, əsasən, vətənin düşdüyü fəlakətli vəziyyət, müztərib hal, gerilik, tənəzzül, cəhalət, yaralı və kədərli vəziyyət xatırladılır, böyüməkdə olan nəslə oxuyub, elm öyrənib, mübarizə əzmi ilə onun dərdinə çarə axtarmaq tövsiyə olunur. Bildirilir ki, vətənin gələcəyi, xilası, yüksəlişi və səadəti gənc nəslin əlindədir. Bu nəsil mübarizə, mücadilə əzmi qazanıb onu hürriyyətə, istiqlala, bəxtiyarlığa qovuşdurmalıdır. Bu onun millətsevərlik, vətəndaşlıq borcudur. M.Ə.Sabir "Qarınca" şeirində yazırdı:

Vətən uğrunda, millət eşqində
Bəzli-can et xülusi-niyyət ilə!
İş apar, baş gedərsə qoy getsin...
Ad qalır, bəs deyilmi, millət ilə?! (15, 390)

Ə.Müznib oğlu Hüseynə müraciətlə qələmə aldığı "Sibiriya məktubları" silsiləsinə daxil olan "Əsgər" şeirində zabiti də, həkimi də, müəllimi də, mühəndisi də, yəni hər bir peşə sahibini vətənin əsgəri hesab edir. Bildirir ki, hər bir vətən və millət övladı öz peşəsində, sənətində, xidmət sahəsində ona namusla, ləyaqətlə qulluq göstərirsə, deməli, öz borcunu şərəflə yerinə yetirmiş olur. Oxşar mətləbi "Vətən" şeirində də bəyan edən sənətkar islam peyğəmbərinin "Vətən sevgisi imandandır" hədisini də xatırladır.

Vətənin, millətin, vətən övladının "əsri-hazırda" düçar olduğu kütləvi, sosial məhkumiyyət, gerilik, səfalət, "viranəlik", pərişanlıq, mövhümatçılıq, "əfsanəpəsəndlik" İbrahim Tahir Musayev Şuşinin "Dəbistan" jurnalında işıq üzü görən "Halımız" (1907, №5), "Bilməm bu mərəz təbi-müsəlmanə nədəndir?" (1907, №4), A.Səhhətin ilk dəfə "Yeni məktəb" (9, 6-7) dərsliyində oxuculara təqdim edilən "Küçə uşağı" şeirlərinin də mövzu hədəfinə çevrilmişdir. İctimai məzmunlu bu lirik mənzumələrdə müəlliflər ayıq bir vətəndaş yanğısı ilə vətənin və vətən övladının düşdüyü zavallı halı, "zindani-əsarəti", "elmü sənaye"dən məhrum olub "zülmətli yollar içrə" gəzdiyini, "bahari-həyati"nin solduğunu millət balalarına anlatmağa çalışırlar. Bədii yönümdə onu da izah edirlər ki, çıxış və nicat yolu yenə elə böyüməkdə olan

nəslin özünə bağlıdır. Həmin nəsil elmli, təhsilli, maarifə yiyələnmiş, mübariz, ayıq, ağıllı, vətənpərvər, millətsevər olarsa, öz vətənini və xalqını ağ günə çıxara, hürriyyətə, istiqlala qovuşdura bilər. Deməli, vətənin, millətin taleyi, gələcək firavanlığı cəmiyyət üzvlərinin "qövlünə və felinə" ("sözünə və əməlinə" – S.M.Qənizadə) bağlıdır.

İ.T.Musayev Şuşinin "Bilməm bu mərəz təbi-müsəlmanə nədəndir?" şeiri janrca qəzəl olsa da, şair ənənəvi janrdan mühüm ictimai mətləbini ifadə etmək məqsədilə yararlanır. Qəzəldə ciddi ittiham notları, satirik pafos da özünü büruzə verir. Sənətkar xalqın düçar olduğu geriliyin səbəbkarlarını ittiham və tənqid edir. Eyni zamanda millətə xor baxan, vətənin taleyinə biganə yanaşan imkanlıları, ixtiyar və imtiyaz sahiblərini satira atəşinə tutur. Bir ittihamçı kimi bədii suallara əl atır:

Millər sözü, ehsan adı ortaya çıxanda,
Gəc tutması ağzın hərə bir yana nədəndir?
Laqeyd durub, xatirinə acları salmaz,
Miskinlərə qıymaz quru bir nalə nədəndir?
Məclisdə durub millətü millət bağırıb da,
Bica belə gülməkləri qəlyanə nədəndir?
Zindani-əsarətdə qalıb Yusifi-millət,
Təsir edəməz naləsi ixvanə nədəndir? (3, 1907, №4)

Göründüyü kimi, vətən övladları arasında milli birliyin, həmrəyliyin olmaması da şairi narahat edir.

Bəzi şeirlərdə müəlliflər belə bir üsuldan istifadə edirdilər: Vətənin, millətin keçmiş və indiki halının ("hali-mazi" və "hali-hazır"ının) müqayisəsini təsvir və təqdim edir, paralel müqayisə fonunda onun qeyb etdiklərini, itirdiklərini, nəhayət, düşdüyü, düçar olduğu müztərib vəziyyəti ortalığa qoyurdular. Ancaq ümidsizliyə qapılmır, nikbin bir ovqatla vəziyyətdən çıxış yolunu da nişan verirdilər. A.Səhhət "Nidayi-millət, yaxud amali-vətənpərvəranə" (14, 1906, №3), "Naleyi-tənəyyür, yaxud millətə xitab" (14, 1907, №5), "Fəryadi-intibah, və ya amali vətənpərvəranə" (3, 1906, №15), Səməd Mənsur "Millətə xitab" (1, 1914, II nəşr), B.Mürşüd "Vətənim və millətim" (10, 1914, №14) və s. kimi şeirlərində məhz bu yolla hərəkət etmişdilər. Müqayisəli poetik təqdimatda mətləb bu cür qoyulurdu: Vətənin, millətin keçmişi şanlı, şərəfli, fəxarətli olmuş, öz əzəməti, qəhrəmanları, müstəqilliyi, qüdrəti ilə öyünmüşdür; indi isə tərəqqi qapıları bağlanmış, dəhşətli bir qəflət kabusu zühur etmiş, onun "rövnəqi bərhəm" olmuş, xar və zəlil günə düşmüşdür. İndiki cari, təxirə salınmaz tələb və məsələ vətən övladını qəflət yuxusundan oyatmaq, onu yeni dövrün inkişaf məcrasına, tərəqqi axarına qovuşdurmaqdır. A.Səhhət həyəcanlı bir intonasiya ilə, məqsədli olaraq şeirə salınmış təkrirlərdən də istifadə etməklə (məhz "ayıl" sözündən) deyilən mətləblə əlaqədar vətəndaş harayını bu şəkildə izhar edirdi:

Ayıl, ey ümməti-mərhumə, ayıl!
Ayıl, ey milləti-məzlumə, ayıl!
Ayıl, ey bülbüli-gülzari-vətən,
Nəğmən ilə ola bidar vətən!
Sən ki, şəhbazi-yədi-qüdrət idin,
Tayiri-sidreyi-ülviyyət idin,
Kim səni dideyi giryan eləmiş?
Kim səni halı pərişan eləmiş?

Sındırıblar nə üçün balü-pərin?
Hanı o ruhfəza nəğmələrin? (16, 37)

Göründüyü kimi, şair öz emosiya, həyəcan və narahatlığını ifadə etmək üçün bədii nida və suallardan, təşbehatlardan bol-bol faydalanır.

Dediyimiz kimi, bu tipli poeziya nümunələrində müəlliflər ümidsizliyə qapılmır, çıxış yolunu da göstərirdilər. Onlar bu çıxış və tərəqqi yolunu məktəb, maarif, elm və mədəniyyətdə tapırdılar. S.Mənsurun "elm atəşi" havası üstündə mahnı şəklində qələmə aldığı "Millətə xitab" şeirindəki bü sözləri o zamankı maarifçi-realist uşaq sənətkarlarının ümumi baxış və qənaəti kimi qəbul edilə bilər:

Başqa miləl elm oxuyub
oldu dünyadə sürur,
Bizlər isə cəhlə uyub,
məhv etdik şanı yeksər.
Haydı, gedək dərs oxuyaq,
xoşbəxt olsun millətimiz. (1, 16, II nəşr, 1914)

Uşaq şairləri vətənə, millətə xidməti əsl vətənpərvərlik, millətsevərlik amalı kimi təqdir edirdilər. Bir sıra böyük şəxsiyyətləri bədii sözün tərənnüm obyektinə çevirərək onların timsalında vətənə və millətə xidmətin nümunəsini nişan verirdilər. Bu cür şeirlərdə konkret şəxsiyyət vəsf olunmaqla arxa planda belə bir fikir ifadə edilirdi: bax, vətənə, millət bu cür xidmət etmək, fayda vermək lazımdır, əsl patriotizm, millətsevərlik sözlə yox, əməllə, xalqa verdiyin fayda ilə ölçülür. A.Səhhətin "Sabir" (10, 1913, №11), Ə.Müznibin "Mirzə Fətəli Axundovun ruhuna" (10, 1911, №2), R.Əfəndizadənin İ.Qaspiralının ölümünə həsr etdiyi "Milli təəssüf" (10, 1914, №14) və s. tərənnümlərdə deyilən həqiqətin dolğun poetik faktlarını görürük.

Ə.Müznib oğluna xitabən qələmə aldığı "Sibiriya məktubları" silsiləsinə daxil olan "İttifaq" (113, 51) şeirində mühüm bir məsələyə toxunur. Göstərir ki, xalqın gücü onun milli birliyində, vahid amal və məslək yolunda vəhdətindədir. Övladları milli həmrəyliyə, fikir və əməl birliyinə malik olmayan xalqın nicatı, yüksəlişi və səadəti mümkünsüzdür.

Bir məsələni də xatırlatmaq lazım gəlir. Azərbaycan ədəbi fikir və düşüncəsində daha əvvəllər start götürən patriotizm, xalqsevərlik ideyaları Azərbaycanda müstəqil cümhuriyyətin – ADC-nin (1918-1920) yarandığı dövrdə daha da gurlaşdı. Milli istiqlal sevincindən və sevgisindən doğan bu ideyalar uşaq ədəbiyyatına da sirayət etdi. Bu, həmin qısa müddətli zaman kəsimində ərsəyə gələn ana dili dərsliklərində, uşaq mətbuatında da öz təzahürünü tapdı. Məsələn, A.Şaiqin 1919-cu ildə tərtib etdiyi "Milli qiraət kitabı" dərsliyinə haqqında danışdığımız mövzuda bir neçə poeziya nümunəsi daxil edilmişdi. Həmin şeirlərdən H.Cavidin "Qoca bir türkün vəsiyyəti", A.Şaiqin "Dağlar soltanı", Əli Ülvinin "Diləyimiz", "Məmləkət xatirəsi" (17, 226, 21, 19, 20) və s. örnəkləri göstərə bilərik.

1920-ci ilin yanvar ayında çapdan çıxan "Məktəb" məcmuəsinin ilk nömrəsinə milli müstəqillik və vətənpərvərlik mövzusunda yazılmış xeyli bədii, həmçinin publisistik əsər salınmışdı. Türk şairlərindən Nazim Xürrəmin "Bən türkəm" (10, 1920, №1), Süleyman Sərinin "Vətənin ümidisən" (10, 1920, №1) və s. şeirləri də həmin materiallar sırasında kiçik yaşlı azərbaycanlı oxucuların mütaliəsinə təqdim edilmişdi.

Onu da əlavə edək ki, ana dili dərsliklərimizdə, uşaq mətbuatımızda istiqalal düşüncəsi nisbətən əvvəlki dövrlərdə də ardıcıl bir ideya-məfkurə xətti kimi diqqət mərkəzində saxlanılmışdır. Ə.Hüseynzadənin "Turani" imzası ilə dərc olunmuş "Hali-vətən" (3, 1906, №16), M.Hadinin "Arzuyi-dil" (3, 1907, №3), Hacı Səlim Səyyah Qasımzadənin "Ümidi-istiqlal" (10, 1916, №4) və s. şeirləri deyilən fikrin sübutuna xidmət edir.

Uşaq şairləri xalqın həyat və məişətinin təsvirinə də diqqət yetirirdilər. H.Qaradağinin "Samovar" (2, 135), A.Səhhətin "Köç" (10, 1912, №13), "Ana və bala" (10, 1912, №14), A.Şaiqin "Qonaqlıq" (8, 88) və s. mənzumələri bu qəbildəndir.

Belə şeirlərdə xalqın həyatına, məişətinə aid maraqlı detalların, lövhələrin, əşyaların, hadisələrin təsviri verilir. Bu cür lövhə və təsvirlər kiçik oxucuları ətraf aləmlə, milli məişət və onun həqiqətləri ilə daha yaxından tanış edir. Məsələn, A.Şaiqin həcmcə çox da böyük olmayan "Qonaqlıq" şeirində canlı, dolğun, əyani bir məişət lövhəsi yaradılır. Vəli adlı şagird dərslərini hazırlayıb qurtarır. Elə bu vaxt it hürür. Bəlli olur ki, yaxın qohumları ailəlikcə onlara qonaq gəlmişdir. Hər iki külfət səmimi görüşür, ocaq qalayıb onun ətrafında dövrə vurub oturur, şirin söhbətlər edir, çörək yeyirlər. Əslində bu tipli mənzərələrin təsviri ilə müəlliflər həm kiçik oxucuları milli məişət detalları ilə tanış edir, həm də onlara qohumlar, habelə insanlar arasında səmimiyyətə, ülfətə, ünsiyyətə, mehribançılığa sövq edən ideyalar aşılayırlar.

Deyilənləri yekunlaşdırıb belə bir nəticəyə gələ bilərik. Haqqında danışdığımız, habelə, ümumiyyətlə, bu tipli əsərlər uşaq ədəbiyyatımızın maarifçi-realist mərhələsində gənc nəslin humanist, vətənpərvər, millətsevər ruhda tərbiyəsində əhəmiyyətli rol oynadı. Eyni zamanda uşaq ədəbiyyatımızda həmin mövzularda əsər yaratmaqdan ötrü gərəkli bir ənənənin yaranmasına səbəb oldu. Gələcəkdə həmin ənənənin layiqli davam etməsi üçün stimul yaratdı.

## Ədəbiyyat


1. Bünyadzadə C. Kəşkül və yaxud nəğmələr məcmuəsi. Bakı: Səda, 1913
2. Çernyayevski A.O., Vəlibəyov S.A. Vətən dili. II hissə. Tiflis: "Kəşkül" mətbəəsi, 1888
3. "Dəbistan" jur. (1906-1908)
4. Əfəndizadə R. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979, 134 s.; Bakı: Şərq-Qərb, 2006
5. "Füyuzat" jur. (1906-1907). Tam mətni. Təkrarnəşr. (Latın əlifbası ilə nəşrə hazırlayan: Bayramlı O.). Bakı: Çaşıoğlu, 2007
6. Hacıbəyov Səməd bəy. Hədiyyeyi-sibyan. Bakı: Axundov çapxanası, 1901
7. Hacıyev Mirzə Balaqardaş. Qafqaz istilahı. Badkubə: naşiri-M.Qafarov, 1902
8. Mahmudbəyzadə M. və b.-ı. İkinci il. Tiflis: "Qeyrət" mətbəəsi, 1908
9. Mahmudbəyov M., Mehdizadə A.S. Yeni məktəb. Bakı: "Kaspi", 1909
10. "Məktəb" jur. (1911-1920)
11. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı ("Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları əsasında). Bakı: Elm, 1977
12. Mirəhmədov Ə. Məhəmməd Hadi. Bakı: Yazıçı, 1985
13. Müznib Ə. Seçilmiş əsərləri. Bakı: Nurlan, 2007
14. "Rəhbər" jur. (1906-1907)
15. Sabir M.Ə. Hophopnamə. Bakı: Yazıçı, 1992
16. Səhhət A. Seçilmiş əsərləri. Bakı: "Lider" nəşriyyatı, 2005
17. Şaiq A.T. Milli qiraət kitabı. Bakı: Birinci hökumət mətbəəsi, 1919
18. Talıbzadə K. Abbas Səhhət. Bakı: Gənclik, 1986

**Севиндж Расулова**

## Идеи патриотизма в нашей просветительско-реалистической детской поэзии


### Резюме

Стадия образования и раннее развитие Азербайджанской детской литературы совпадает со второй половиной XIX века и началом XX века. Этот период также является этапом просветительского реализма нашей детской литературы. Примеры Азербайджанской детской литературы, а также детской поэзии, созданной в этот период, можно разделить на разные тематические и идеологические группы. Среди этих тем и идей важную роль играют патриотические мотивы. В этой статье мы попытались использовать эти работы. Великие мастера слова того периода пропагандировали и восхваляли этот мотив с большим энтузиазмом. В статье рассматриваются существующие суждения и выводы в Азербайджанском литературно-теоретическом представлении. Выражаются отношение к этим соображениям и мнениям.

В этот период было создано много примеров патриотической лирики. Такие азербайджанские детские поэты, как , Р.Афандизаде, Г. Гарадаги, А. Юсфизаде, А. Саххат, С. Гаджибеков, А. Шаик, М. Хади, М.А.Сабир, Г. Джавид, А. Мюзниб, И. Т.Мусаев-Шушинский, С.Мансур, Б.Муршуд, А. Улви, а также турецкие поэты, как, Назим Хуррам, Сулейман Сери и другие создавали свои ценные художественные произведения патриотической лирики для детей.

В детских стихах, написанных о родине, изображены и проиллюстрированы природа, горы, реки, леса и другие чудесные красоты страны. Детские поэты, которые создали эти примеры, знакомят детей с этими созданиями и событиями. Улучшают их художественно-эстетический вкус, расширяют знания и объем мысли. В целом, существует оптимизм в отношении содержания и идеи детских стихов, написанных о родине. В этих стихах является доминирующим фактом призыв к патриотизму. Конечно, цель детских поэтов разукрасить маленькие детские сердца с яркими аспектами жизни, ее красоту. Речь идет о тенденции формировании оптимистического настроения у детей. Это одна из главных миссий детских писателей.

В этой статье мы вовлекли в исследование произведения о патриотизме Азербайджанских детских поэтов на тот период. В ходе исследования мы стремились сделать как можно больше обобщений. Постарались сохранить работы, которые являются более важными с точки зрения идей, содержания и мастерства.


**Ключевые слова:** просветительский реализм, детская поэзия, патриотизм, национальное самосознание, идеал Родины.

**Key words:** enlightenment-realism, children's poetry, patriotism, national self-consciousness, ideal of motherland

**Sevinj Rasulova**

**The ideas of patriotism in our enlightenment-realistic children's poetry**

**Summary**

The stage of education and the early development of children's literature in Azerbaijan coincides with the second half of the 19th century and the beginning of the 20th century. This period is also a stage of enlightenment realism of our children's literature. Examples of Azerbaijani children's literature, as well as children's poetry created during this period, can be divided into different thematic and ideological groups. Among these themes and ideas, patriotic motifs play an important role. In this article, we have tried to analyze on these works. Great masters of the words of that period propagandized and praised this motif with great enthusiasm. The article considers the existing judgments and conclusions in the Azerbaijani literary-theoretical view. We express their attitude towards these considerations and opinions.

During this period many examples of patriotic lyricism were created. Such Azerbaijani children's poets as R.Afandizade, G.Garadaghi, A. Yusfizade, A. Sahkhat, S. Hajibeyov, A. Shaik, M. Hadi, M.A. Sabir, G. Javid, A. Musnib, And T.Musaev-Shushinsky, S.Mansur, B.Murshud, A. Ulvi, as well as Turkish poets, like Nazim Khurram, Suleiman Seri and others created their valuable artistic works of patriotic lyrics for children.

Nature, mountains, rivers, forests and other wonderful beauties of the country are depicted and illustrated in children's poems written about the homeland. The children's poets who created these examples introduce the children to these creatures and events. They improve their artistic and aesthetic taste, expand knowledge and volume of thought. In general, there is optimism about the content and the idea of children's poems written about the motherland. In these verses, the call to patriotism is dominant. Of course, the goal of children's poets is to decorate small children's hearts with bright aspects of life, its beauty. This is a trend towards the formation of an optimistic mood in children. This is one of the main missions of children's writers.

In this article we involved in the study works on the patriotism of Azerbaijani children's poets for that period. In the course of the study, we sought to make as many generalizations as possible. We have made an effort to keep in mind the works that are more important in terms of ideas and craftsmanship.

Redaksiyaya daxil olma tarixi: 15.06.2019

Çapa qəbul olunma tarixi: 18.07.2019

Filologiya elmləri doktoru ***Yaqub Babayev*** tərəfindən çapa tövsiyə olunmuşdur.